


## Ölkəmizi tanıyaq



# Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə



"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiya çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə hərəkət edən Quba, Qusar, Xaçmaz, Şabran və Xızı rayonlarının məktəbliləri ekskursiyanın ikinci günü, noyabrın 17-də Şəkinin tarixi yerləri və muzeyləri ilə tanış olublar.

Tur-aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində şəhər icra hakimiyyətinin rəsmiləri tərəfindən mehribanlıqla qarşılanıblar.

Şəhər icra hakimiyyəti başçısının müavini Zərinə Cavadova məktəblilərə Şəkinin tarixi, mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı barədə qısa məlumat verib. Diqqətə çatdırılıb ki, 2700 ildən çox yaşı olan bu qədim diyar həm də dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur.

Məktəblilərin diqqətinə çatdırılıb ki, Şəki əsrlər boyu ipəkçilik ənənələrinin qorunub saxlandığı bir diyar olub. İpəkçilik bütün dövrlərdə şəkililərin həyatında, məişətində özünəməxsus yer tutub. Şəki bu gün də öz ipəkçilik məhsulları ilə dünyada məşhurdur. Şəhərdə fəaliyyət göstərən "Şəki-İpək" ASC şimal-qərb bölgəsinin ən böyük sənaye müəssisələrindən biri hesab olunur.

Səfər proqramına uyğun olaraq məktəblilər sonra şəhərin tarixi hissəsinə - "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisinə gəliblər. Məlumat verilib ki, qoruğu əhatələyən əzəmətli qala divarlarının Çələbi xanın dövründə, təxminən 1743-1755-ci illərdə tikildiyi ehtimal olunur.

Qoruğun ərazisində yerləşən və Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, bu saray XVIII əsrə aid nadir tarix-memarlıq abidəsidir. 1761-1762-ci illərdə inşa edilən sarayın tikintisində mismar və yapışqandan istifadə olunmayıb.

Sarayı bəzəyən şəbəkə-pəncərələr məktəblilərin böyük marağına səbəb olub. Diqqətə çatdırılıb ki, Şəki tarixən sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olub. Şəki sənətkarlarının yüz illər boyunca əldə etdikləri təcrübə nəsildən-nəslə keçməklə zəmanəmizədək gəlib çatıb. El sənətkarlarının misilsiz sənət ənənələrini davam etdirən şəkili sənətkarların fədakar əməyi sayəsində bu qədim şəhərdə zəngin tarixi-mədəni irs yaranıb. Burada memarlıq, tətbiqi sənət, şəbəkə, ağac üzərində oyma, dulusçuluq və digər sənət növləri yüksək səviyyədə inkişaf edib. Bildirilib ki, şəbəkə Azərbaycanın bütün bölgələrində geniş yayılsa da, ən incə, ən zərif və gözəl şəbəkə məhz Şəki xanlarının sarayındadır.







Tur-aksiya iştirakçıları sarayın önündə xatirə şəkilləri çəkdiriblər.

Sonra məktəblilər qoruğun ərazisində yerləşən V-VI əsrlərə aid memarlıq abidəsi Dairəvi Məbəd və Xalq Tətbiqi Sənəti Muzeyi ilə tanış olublar.

Şagirdlərin Şəki Tarix-Diyarşünaslıq Muzeyi ilə tanışlığı zamanı məlumat verilib ki, 1925-ci ildən fəaliyyət göstərən muzeydə 5 minə yaxın eksponat saxlanılır.

"Marxal" müalicə-istirahət kompleksində nahar fasiləsindən sonra tur-aksiya iştirakçıları Zaqatala rayonuna yola düşüblər.

❖❖❖

Prezident İlham Əliyevin tapşırığına əsasən, "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində səkkiz rayon və bir şəhəri təmsil edən məktəblilər noyabrın 17-də Quba və Qusar rayonlarının görməli yerləri ilə tanış olublar.

Şimal bölgəsinə ekskursiyada Şamaxı, İsmayıllı, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ağsu, Qobustan və Mingəçevirin ümumtəhsil məktəblərinin 300-dən çox yuxarı sinif şagirdi iştirak edir.

Şamaxı, İsmayıllı, Şəki, Oğuz və Qobustandan olan məktəblilərin qədim Qubaya ekskursiyası dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başlayıb. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev Parkını gəzib, eləcə də dağ yəhudilərinin ibadət etdikləri sinaqoqla yaxından tanış olublar.

Diqqətə çatdırılıb ki, bu gün tolerantlığın Azərbaycan modeli dünya üçün nümunə sayılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə dini dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir, İslam həmrəyliyinin gücləndirilməsi və dini dəyərlərin müdafiəsi üçün beynəlxalq miqyasda işlər görülür. Ölkəmizdə multikulturalizm və tolerantlıq dövlət siyasəti səviyyəsinə qaldırılıb.

Sonra məktəblilər Qudyalçay üzərindəki XIX əsrə aid tarixi memarlıq abidələrindən olan Tağlı körpü ilə tanış olublar. Bildirilib ki, keçmiş mühəndis tikililərindən olan körpü dövrümüzə qədər qorunub saxlanılıb. XIX əsrdə Quba qəzasında 7 körpü olub, lakin onlardan yalnız Tağlı körpü adlanan tikili günümüzə qədər gəlib çatıb. 1894-cü ildə tikilmiş körpü Quba şəhərinin mərkəzi ilə Qırmızı qəsəbəni birləşdirir.



Zəngin memarlıq üslubuna malik Cümə məscidi ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, məscid 1802-ci ildə tikilib. Dini məbədin tikintisi müəyyən fasilələrlə 10 ilə başa çatdırılıb. Bu məscid təkcə Qubada deyil, bütün şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.

Quba Soyqırımı Memorial Kompleksi və ərazidəki kütləvi məzarlığı ziyarət zamanı tur-aksiya iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Bildirilib ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Komplekslə tanışlıq zamanı qrup rəhbərləri və müəllimlər şagirdlər arasında vətənpərvərlik ruhunun yüksəldilməsi üçün onlarla geniş söhbətlər də aparıblar. Şagirdlərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini gülləboran etməsi barədə ətraflı məlumat verilib. Bildirilib ki, düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprelin 2-də yenidən mövqelərimizə hücuma keçib, bir neçə dinc sakini qətlə yetirib. Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks-hücumla bir sıra məntəqələri və yüksəklikləri azad edib. Aprel müharibəsi bir daha sübut etdi ki, Azərbaycan əsgəri, xalqımız nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır.



Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini də izləyiblər. Burada onlara Quba xalçaçılıq məktəbi haqqında ətraflı məlumat verilib.

Günün ikinci yarısında məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər.

Şagirdlər həmçinin "Rixos Quba Azerbaijan" hotel kompleksi və burada yerləşən Azərbaycan Milli Qolf Klubu ilə də yaxından tanış olublar.

❖❖❖

Qəbələ, Göyçay, Ağsu və Mingəçeviri təmsil edən məktəblərin şagirdlərindən ibarət qruplar isə noyabrın 17-də Azərbaycanın şimal qapısı olan Qusar rayonuna gəliblər.

Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Qusar şəhərinin girişindəki Bayraq meydanında qarşılanıblar. Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat veriblər.





Bildirilib ki, regionların inkişafına dair dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər Qusarın da simasını tamamilə dəyişib. Rayonda tikinti-quruculuq, abadlıq işləri intensiv həyata keçirilir, təhsil, səhiyyə, mədəniyyət sahələrində nəzərəçarpacaq irəliləyiş əldə olunub. Bu irəliləyişi təmin edən əsas amil Prezident İlham Əliyevin Qusara, onun tərəqqisinə, insanlarının rifahına qayğısıdır. Bir neçə dəfə Qusarda səfərdə olan dövlət başçısı hər dəfə də neçə-neçə obyektin istifadəyə verilməsində, yeni tikililərin təməlqoyma mərasimlərində iştirak edib.

"Şahdağ" Turizm Mərkəzi ilə tanışlıq zamanı şagirdlərin diqqətinə çatdırılıb ki, turizm mərkəzi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşən kompleksin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açıb. Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan "Şahdağ" Turizm Mərkəzində inşa edilən hotellər bu istirahət məkanına marağı daha da artırır.

Turizm mərkəzi ilə tanışlıq zamanı məktəblilər kompleksdə təqdim olunan xidmətlərdən pulsuz istifadə ediblər.



Günün ikinci yarısında məktəblilər rayonun Həzrə kəndində "Şeyx Cüneyd" türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyi, Olimpiya idman kompleksi və rəsm qalereyası ilə yaxından tanış olublar.

❖❖❖

"Quba haqqında, əsasən də Quba alması haqqında çox eşitmişdim. Amma bugünkü ekskursiya zamanı şahidi oldum ki, bu qədim diyar təkcə məşhur ağ alması ilə deyil, həm də tarixi abidələri, əsrarəngiz təbiət mənzərələri ilə zəngindir. "Cümə" məscidi, Tağlı körpü, dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbə və gəzdiyimiz başqa yerlər mənə xoş təsir bağışladı. "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiyanın iştirakçısı olduğuma görə çox sevinirəm".

Bu sözləri AZƏRTAC-a müsahibəsində tur-aksiyanın Şəkidən olan iştirakçısı Asif Qədirli söyləyib.

Baş Zəyzid kənd tam orta məktəbinin IX sinif şagirdi bildirib ki, ekskursiya zamanı başqa rayonlardan həmyaşıdları ilə dostlaşmaq imkanı da qazanıb. "İndi mənim Şamaxı, İsmayıllı, Oğuz və Qobustandan, həmçinin başqa rayonlardan məktəbli dostlarım var. Biz istirahət zamanı intellektual oyunlar oynayır, səfər təəssüratlarımızı bölüşürük. Bu gün Qubadayıq. Sabah isə Qusarın görməli yerlərini gəzəcəyik" - deyə məktəbli qeyd edib.

❖❖❖

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiya məktəblilərin hərtərəfli inkişafında mühüm rol oynayacaq. Ekskursiya zamanı şagirdlərimiz maariflənir, dünyagörüşlərini artırır, eyni zamanda, Azərbaycanın dilbər guşələri ilə daha yaxından tanış olurlar. Qəbələ və Qusar Böyük Qafqaz dağlarının ətəyində yerləşir, həm də qonşu rayonlardır. Amma ekskursiya zamanı şahid olduq ki, hər bir rayonun özünəməxsus zəngin tarixi, mədəniyyəti, ənənələri var. Bununla yanaşı, ayrı-ayrı rayonlarımızı, şəhərlərimizi gəzməklə Azərbaycanda gedən dinamik inkişafın nəticələrini seyr etmək mümkündür. Əminəm ki, dörd gün davam edəcək maraqlı səyahət məktəblilərin yaddaşında silinməz izlər buraxacaq".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Quba-Qusar-Xaçmaz marşrutu üzrə tur-aksiyaya Qəbələdən qoşulan qrupa rəhbərlik edən Zahir Kərimov deyib.

O bildirib ki, şagirdlər "Şahdağ" Turizm Mərkəzinə də səfər ediblər. Kompleks növbəti qış mövsümünün açılışına hazırlaşır. Bu mərkəzə, eləcə də Qəbələdəki "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə qış aylarında üz tutan turistlərin sayında hər il artım müşahidə olunur. Azərbaycan artıq bütün dünyada geniş turizm imkanları ilə tanınır.

"Bu gün tur-aksiyada iştirak edən məktəblilər gələcəkdə ölkəmizin inkişafı üçün əllərindən gələni əsirgəməyən savadlı kadrlar olacaqlar" - deyə qrup rəhbəri qeyd edib.

❖❖❖

"Ölkəmizi tanıyaq" tur-aksiyası bizə Qəbələnin tarixi abidələri ilə yanaşı, həm də rayonun inkişafı ilə daha yaxından tanış olmaq imkanı yaradıb". Bu sözləri Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə təşkil edilən tur-aksiyada iştirak edən Göygöl şəhər 6 nömrəli orta məktəbin IX sinif şagirdi Ceyhun Eyvazov AZƏRTAC-a müsahibəsində deyib.

Qəbələdə "Beltmann" piano fabriki, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi, "Qəbələnd" Əyləncə Mərkəzi ilə tanış olan Göygöl məktəblisi rayonda sürətli inkişafın şahidi olduğunu bildirib. "Burada böyük abadlıq-quruculuq işləri aparılır, müasir infrastruktur yaradılır. Rayonun gözəl təbiətinə isə heyran olmamaq mümkün deyil. Biz ekskursiya zamanı rayonun qədim mədəniyyət abidələri ilə yanaşı, müasir tikililəri ilə də yaxından tanış olduq. IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən ağacəkmə aksiyasında iştirak etmişik. Ümumiyyətlə, iki gün ərzində gördüklərimiz bölgə haqqında təəssüratlarımızı ikiqat artırıb" - deyə C.Eyvazov vurğulayıb.